ədalət.-2017.-27 aprel.-S.4.

# "MƏNİ ALDATDIN, HƏYAT!.."

**Sizə təqdim edəcəyim bu kitabın müəllifi Oqtay Səmədoğlunu qəzetimizin bölgə müxbiri işlədiyim zamandan tanıyıram. Yəni 90-cı illərin əvvəllərində cəbhə bölgəsində, daha dəqiq desək, Beyləqanda görüşdüm, öncə tanış oduq, sonra da səmimi münasibətimiz bizi bir-birimizə daha da yaxınlaşdırdı. Günlərin birində də söhbət əsnasında hiss etdim ki, Oqtay müəllim sözə, ədəbiyyata könül verən insanlardandır. Bu da bizi necə deyərlər, ikiqat bir-birimizə bağladı. Polis müstəntiqi olan Oqtay müəllim özünün sözə olan meylini şeirə də çevirməyi bacarırdı. Amma bunu heç kimə demirdi. Hətta çapını da arxa plana keçirmişdi. İllər ötdü, mənim və digər dostlarımın təhrikiylə günlərin birində Oqtay müəllimin ilk kitabı "Qərib yolçu dünyaya gəldi", sonra ilk kitabın sevinci onu "Qiyməti sözə ver", "Qaranlıqdan gələn səslər" kitablarının çapına həvəsləndirdi. Və günlərin bir günü də Oqtay müəllim AYB-yə üzv oldu.**

İndi sözə barəsində fikirlərimi söyləyəcəyim sadəcə 4-cü kitabın redaktoru AYB-nin Qarabağ bölməsinin sədri şair-publisist, professor Ənvər Əhmədi. Ənvər müəllim həm də kitabın ön sözünün müəllifidi. Mən kitabdan öncə dəyərli ağsaqqal şairimiz professor Ənvər Əhmədin "Yovşan ətirli, sevgi sətirli şeirlər" adlı ön sözünü oxudum. Açığını deyim ki, Ənvər Əhməd bu ön sözdə




Oqtay Səmədoğlunun şeir çələngini zərgər dəqiqliyi ilə incələyib, oxucuya söz deməyə yer qoymayıb...

Təbii ki, hər bir oxucunun öz fikri, öz düşüncəsi var. Məhz mən də buna istinad edərək yaradıcılığına bələd olduğum Oqtay Səmədoğlunun "Məni aldatdın, həyat!.." (Ərgünəş-2016) kitabındakı şeirlər barəisndəki fikirlərimi sizinlə bölüşürəm. Bax elə kitabın ilk şeiri "Bir budaq insan" adlanır.

**... Hər pöhrə ömürdü, bir gün oyanıb,**
**Bir budaq adıyla dirçələsidi.**
**Mühitdə ruh varsa, insan dayanır,**
**Pöhrələr solanda o öləsidi...**




Zənnimcə, burdakı fikir yükü mövzuya şairin baxış bucağı özü-özlüyündə hər şeyi deyir. Üstəlik, burdakı poetik fəlsəfə də təbiətlə cəmiyyətin paralelləşməsi də göz önündədi. Şairin "Bu dünya dəyişən deyil" şeirində isə hər bir söz adamının əzəli mövzusu olan dünyaya Oqtay Səmədoğlu yanaşması özünü büruzə verir. Şair yazır:

**Elə tor hbrüb ki, zaman hörümçək,**
**Bu toru dağıtmaq böyük hünərdi.**
**Qıl-qurtlar qoysalar, bir iş görəcək,**
**Bu dəfə meydanda nər oğlu nərdi**
**Bəlkə də dəyişdi, ayıl a qardaş...**
**Bu dünya dəyişən deyil a qardaş.**

Şeirin nümunəsindən də göründüyü kimi, şair həm dünyanın dəyişcəyinə, yəni insanın qüdrətinə inarır, həm də dünyanın köhnə sifətində qalacağına da şübhə etmir. Elə şeiri də maraqlı edən bu təzaddı.

Oqtay Səmədoğlunun bu kitabı 4 fəsildən ibarətdi. Buradakı şeirlərin böyük əksəriyyəti duyğuları, hissləri, təbiəti. Bütövlükdə insan yaşamını tərənnüm edir. Müəllifin poemaları isə bugünümüzün həsrətinə, Qarabağ nisgilimizə, keçmiş xatirələrimizə, arzularımıza söykənib. Və hər iki poemada müəllif həm dialoq yarada bilib, həm də tərənnümlə təbliği qoşalaşdırıbdı. Burdakı tanıtım hissləri yaddaşdan, içdən gəlir. Ona görə də oxucunu yormur, əksinə, onu özünə çəkir.

Mən Oqtay Səmədoğlunun "Məni aldatdın, həyat!.." kitabı barəsindəki bu kiçik qeydimi özünü "Sevdan mübarək" şeiri ilə tamamlamaq istəyirəm.

**... Mənim məhəbbətim belə biçimdə,**
**Bəxtinə bu düşüb, dözəsən gərək.**
**Sənə şirinliyim, acım içimdə**
**Sevə bilərsənsə sevdan mübarək.**

Elə mən də Oqtay müəllimin bu mübaliğəli, bir az da həssaslığı özünə hopdurmuş sevdasına qoşularaq deyirəm ki:

**- Oqtay Səmədoğlu, sənin də yeni kitabın mübarək!**

**Əbülfət MƏDƏTOĞLU**